*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   3 fevral 2018-ci il   № 9 (2225)   Qiymәti 25 qәpik


# Azərbaycan gəncliyi etibarlı gələcəyimizdir

*Hər il fevralın 2-si ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. Bu günümüzün təsis olunması, ümumiyyətlə, müstəqil Azərbaycanda məqsədyönlü gənclər siyasəti ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.*

**Ümummilli lider Heydər ƏLİYEV:**

*Azərbaycanın gəncləri, gənc nəsli, milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.*



Dahi rəhbər ölkəmizdə siyasi hakimiyyətinin müxtəlif dövrlərində gənclərə güvənib, onlara cəmiyyətin bütün sahələrində qol-qanad verib. Onun siyasi irsini öyrəndikcə Azərbaycan gəncliyinə necə böyük diqqət və qayğı göstərdiyinin şahidi oluruq. Ümummilli Liderimizin imzaladığı bir çox sərəncamlar da zamanında gənclər hərəkatının hərtərəfli inkişafına geniş imkanlar yaradıb.

Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön sıralarında gedən gənc nəsil ölkəmizin ərazi bütövlüyü uğrunda əsl fədakarlıq göstərib və torpaqlarımızın işğalçılardan qorunmasında öz rolunu əsirgəməyib. Gəlin, bir məqamı xatırlayaq ki, görkəmli siyasət adamı olan Heydər Əliyevin 1993-cü ilin noyabrında bir müraciəti ilə on minlərlə Azərbaycan gənci səfərbər olunaraq Vətənimizin ərazi bütövlüyü uğrunda savaşa qalxdı və məhz bu hərəkatdan sonra işğalçı Ermənistan cəbhə xəttində ordumuzun güclü müqavimıəti ilə qarşılaşdı. 1994-cü ilin qışında Azərbaycan Ordusunun Beyləqan-Füzuli istiqamətində uğurlu döyüşləri nəticəsində 22 yaşayış məntəqəsi işğaldan azad edildi. Həmin dövrdə döyüşlərdə iştirak etmiş təcrübəli hərbçilər öz xatirələrini bölüşərkən gənclərin könüllü müharibəyə yola düşməsinə stimul yaradan əsas amil kimi Heydər Əliyevin siyasi qətiyyətini və müdrikliyini dəyərləndirirlər. Azərbaycan rəhbəri cəbhə xəttinə ardıcıl səfərlər edərək gənclərimizi Vətənin müdafiəsinə ruhlandırıb və qeyd edib ki, ərazi bütövlüyümüzün qorunması gəncliyin qarşısında dayanan ən müqəddəs vəzifədir. Bu çağırışdan ruhlanan minlərlə gəncimiz, doğrudan da, son nəfəsinədək döyüşərək Ulu Öndərin ideyalarına sadiq olduğunu sübuta yetirdi.

Gəncləri cəmiyyətin aparıcı qüvvəsi hesab edən Ulu Öndər yaxşı bilirdi ki, sabaha gedən yol gənclikdən keçir, yəni, gənclərə güvənmədən heç bir sahədə uğur qazanmaq olmaz. Dövlət rəhbərliyinin etimadından ruhlanan Azərbaycan gəncləri tarixin bütün dövrlərində fədakarlıq nümunələri göstəriblər.

Müasir dövrümüzdə də Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev gənclər üçün böyük işlər görür, gənclərə bütün sahələrdə yüksək etimad göstərilir. Bu gün cəmiyyətimizdə elə bir sahə yoxdur ki, orada gənclər layiqincə təmsil olunmasınlar.

2016-cı ilin aprel döyüşlərində əldə olunan tarixi qələbəmiz bir daha sübut etdi ki, mübariz Azərbaycan gəncliyi Vətənimizi qorumağa və bu yolda can əsirgəməməyə daim hazırdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, aprel zəfəri gənclərimizin vətənpərvərliyini, müasir dövrdə Vətənimizə, dövlətimizə və xalqımıza layiq olan gözəl, dəyərli bir nəslin formalaşdığını bütün dünyaya nümayiş etdirdi.

Müstəqil bir dövlətin vətəndaşları olmaqdan qürur duyan gənclərimiz doğma ordumuzun sıralarında şərəflə xidmət edərək Vətənimizi düşməndən layiqincə qoruyurlar. Doğrudan da, 2016-cı ilin aprel döyüşlərində gənclərimiz qəhrəman bir xalqın övladları olduqlarını isbat etdilər. Cəbhə bölgələrinə həmin günlərdə axışan yüzlərlə, minlərlə könüllü gənc ordumuza dəstək nümayiş etdirib əsgərlərimizlə çiyin-çiyinə döyüşməyə hazır olduqlarını bildirdi. Amma ordu komandanlığı hərbi bölmələrimizin düşmənə sarsıdıcı sərbə vurmağa qadir olduğunu bəyan edərək əlavə köməyə ehtiyac yaranmadığını qeyd etdi.

Azərbaycanda cəmiyyətin avanqard dəstəsi kimi formalaşan gəncliyin böyük bir hissəsi də könüllülər hərəkatında fəal iştirak edir. Son bir neçə ildə ölkəmizin paytaxtında keçirilən beynəlxalq səviyyəli idman yarışlarında bu fəallığa şahid olduq. Birinci Avropa, habelə İslam Həmrəyliyi Oyunlarında on minlərlə gəncimiz könüllü səfərbər olunaraq yarışların yüksək səviyyədə təşkil edilməsinə dəyərli töhfə verdi.

Ölkə rəhbərliyinin həyata keçirdiyi uğurlu gənclər siyasətinin əsas istiqamətlərindən biri də idmanın hərtərəfli inkişaf etdirilməsidir. Heç şübhəsiz, sağlam ruhlu gəncliyin formalaşmasında idmanın da əhəmiyyəti danılmazdır. İdmanla məşğul olmaq gənclərin fiziki qabiliyyətini artırır, onlarda əməyə, zəhmətə bağlılıq yaradır. Qürurla qeyd etmək lazımdır ki, idman hərəkatının geniş vüsət alması nəticəsində gənclərimiz bir çox mötəbər yarışlarda Azərbaycanı layiqincə təmsil ediblər. Dəfələrlə beynəlxalq idman arenalarında səsləndirilən himnimizi eşidəndə, ucaldılan üçrəngli bayrağımıza tamaşa edəndə, könlümüz riqqətə gəlib. Həmin anlarda qürurdan köksümüz qabarıb, gözümüz yaşarıb və düşünmüşük ki, müstəqil Azərbaycan adlı qüdrətli Vətənin övladlarıyıq.

Əsası Ulu Öndərimiz tərəfindən yaradılan dövlət gənclər siyasətinin hazırkı dövrdə uğurlu davamını sübut edən amillərdən biri də ötən ilin sentyabrında Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının qəbul edilməsidir. Gənclərə göstərilən yüksək dövlət qayğısının nəticəsidir ki, dövlət quruculuğunun bütün sahələrində onlar layiqincə təmsil olunurlar. Dövlətçiliyə sadiq olan gənclərimiz isə onlara olan inamı, etimadı daim öz uğurları ilə doğruldurlar. Şübhəsiz ki, yaxın dövrü əhatə edən Dövlət Proqramı da Azərbaycan gəncliyinin inkişafında yeni mühüm mərhələ olacaqdır.

Daim təlimlərdə, məşğələlərdə döyüş və mənəvi-psixoloji hazırlıqlarını artıran ordu gəncləri də ölkəmizin hərbi qüdrətinin daha da gücləndirilməsinə töhfə verərək qarşıda duran tarixi vəzifəni - torpaqlarımızın son qarışına kimi işğaldan azad edilməsi kimi mühüm tapşırığı inamla yerinə yetirəcəklər!

**"Azərbaycan Ordusu"**

# Veteranlar Təşkilatının sədrinə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" təqdim olunub



*Böyük Vətən müharibəsi veteranı, Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun 95 illik yubileyi ilə əlaqədar dövlətimizin başçısının Sərəncamı ilə təltif edildiyi "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nun fevralın 1-də yubilyara təqdim olunması mərasimi keçirilib.*

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Respublika Veteranlar Təşkilatının rəhbərliyi, veteranlar, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Prezidentin köməkçisi Əli Həsənov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu Respublika Veteranlar Təşkilatının sədri Tofiq Ağahüseynova təqdim edib.

Mərasimdə çıxış edən Əli Həsənov general-polkovnik Tofiq Ağahüseynovun Azərbaycanda ordu quruculuğu və Silahlı Qüvvələrimizin inkişafındakı xidmətlərindən danışıb. Prezidentin köməkçisi general-polkovnik Tofiq Ağahüseynovun respublikamızda veteranların hüquq və mənafelərinin təminatına, onların sosial müdafiəsinə mühüm töhfələr verdiyini qeyd edib. Diqqətə çatdırıb ki, dövlətimizin başçısı İlham Əliyevin yanvarın 31-də imzaladığı Sərəncamla Azərbaycanın ictimai həyatında fəal iştirakına və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə Tofiq Ağahüseynov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Respublika Veteranlar Təşkilatının sədri Tofiq Ağahüseynov ölkəmizdə veteranlara göstərdiyi yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb



Fevralın 2-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

# Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun 95 illik yubileyi qeyd edilib

Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında, inkişafında və milli hərbçi kadrların hazırlanmasında xüsusi xidmətləri olan, "Şöhrət" və "Azərbaycan Bayrağı" ordenləri ilə təltif edilmiş, Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov ölkəmizin ictimai-siyasi həyatında, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak edir. Tofiq Ağahüseynov SSRİ dövründə bir sıra məsul hərbi vəzifələrdə işləyib. Azərbaycanın müstəqilliyinin bərpasından sonra hərb işinin inkişafında, ölkəmizin hərb tarixində mühüm xidmətləri olub. Ulu öndər Heydər Əliyevin hərbi məsələlər üzrə köməkçisi kimi, Tofiq Ağahüseynov bu sahənin inkişafında, Azərbaycanın müasir standartlara uyğun ordusunun yaradılmasında xüsusi xidmətlər göstərib.

Təcrübəli hərb xadiminin 95 illik yubileyi münasibətilə yanvarın 30-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında tədbir keçirildi.

Tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Prezident İlham Əliyevin Böyük Vətən müharibəsi iştirakçılarına daim diqqət və qayğısından danışdı. Bildirdi ki, Böyük Vətən müharibəsinin iştirakçısı Tofiq Ağahüseynovun 95 illik yubileyinin qeyd olunması da bu diqqət və qayğının bariz nümunəsidir.

Məlumat verildi ki, T.Ağahüseynov 1941-ci ildə Bakı Zenit Artilleriya Məktəbinə daxil olmaqla, həyatını 18 yaşından hərblə bağlayıb. Müharibə başlandıqdan sonra leytenant rütbəsi alan T.Ağahüseynov cəbhəyə yola düşüb. Birinci Belarus cəbhəsində taqım komandiri, əlahiddə zenit artilleriyası divizionu qərargah rəisinin köməkçisi kimi Visla-Oder və Berlin əməliyyatlarında iştirak edib. T.Ağahüseynov 1949-cu ildə Dzerjinski adına Hərbi Akademiyaya, ardınca Hərbi Artilleriya Akademiyasına daxil olub. Yüksək təhsilli mütəxəssis kimi Vətənə qayıdan gənc hərbçi dörd il Bakıda, Hava Hücumundan Müdafiə polkuna komandirlik edib. Sonrakı xidmət




yolu diviziya komandiri kimi Volqoqradda keçən Tofiq Ağahüseynov 1968-ci ildə general-mayor rütbəsi alıb və növbəti il Rostovda korpus komandiri təyin edilib. SSRİ kimi bir dövlətdə qeyri-rus millətindən olan bir şəxsin cəmi dörd il sonra general-leytenant rütbəsi alması onun hərb sənətini necə yüksək səviyyədə mənimsəməsinin nəticəsi olub. Tofiq Ağahüseynov 1975-ci ildə Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanının birinci müavini təyin edilib. Beş il sonra o, SSRİ Silahlı Qüvvələrində general-polkovnik rütbəsini alan ilk azərbaycanlı olur. Həmin vaxt ona Bakı Dairəsi Hava Hücumundan Müdafiə Komandanı vəzifəsi həvalə edilmişdi. 1982-ci ildə isə general-polkovnik Tofiq Ağahüseynov Varşava Müqaviləsi dövlətlərinin birləşmiş silahlı qüvvələri baş komandanlığının Çexoslovakiyadakı nümayəndəsi təyin olunub.

Tədbirdə vurğulanıb ki, Tofiq Ağahüseynovun yüksək hərbi rütbələrə layiq görülməsində o zaman Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin hərbi sahədə həyata keçirdiyi düşünülmüş siyasətin böyük rolu olub. Bu sahədə hazırkı generallarımızın mütləq əksəriyyətini yetirmiş C.Naxçıvanski adına Hərbi Liseyin adını qeyd etmək kifayətdir. General özü də onun formalaşmasında Heydər Əliyevin aparıcı rolu olduğunu dəfələrlə vurğulayıb. Ulu Öndər onun hərbi sahədəki bacarığını və xidmətlərini həmişə yüksək qiymətləndirib. Prezidentin 1997-ci il 17 aprel tarixli Sərəncamı ilə Tofiq Ağahüseynovu özünün hərbi məsələlər üzrə köməkçisi vəzifəsinə təyin etməsi və general-polkovnik rütbəsində Azərbaycan Ordusu sıralarına bərpa etməsi məhz bunun nəticəsi idi.

T.Ağahüseynov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşmasında və hərbçi kadrların hazırlanmasında xüsusi xidmətlərinə görə Prezident İlham Əliyevin 2008-ci il 1 fevral və 2013-cü il 17 yanvar tarixli sərəncamları ilə "Şöhrət" və "Azərbaycan Bayrağı" ordenləri ilə təltif edilib.

Tədbirdə çıxış edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev general-polkovnik Tofiq Ağahüseynovun Azərbaycan Silahlı Qüvvələrinin inkişafındakı və ordu quruculuğundakı xidmətlərindən danışıb. Nazir müavini qeyd edib ki, Tofiq Ağahüseynov Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ordumuzun formalaşmasında fəal iştirak edib. "O, ümummilli lider Heydər Əliyevin köməkçisi və silahdaşı olub. Müasir dövrdə ordumuzun gücü və potensialı gündən-gündən artır. Ölkəmizdə ordu quruculuğu işinin təməli məhz 90-cı illərin əvvəllərində qoyulub. Hazırda Respublika Veteranlar Təşkilatına rəhbərlik edən Tofiq Ağahüseynovun gənc nəslin düzgün istiqamətləndirilməsində rolu əvəzsizdir."

General-leytenant Kərim Vəliyev Müdafiə Nazirliyinin rəhbərliyi adından yubilyarı təbrik edib və ona cansağlığı arzulayıb.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev, Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri Fərhad Süleymanov, veteranlar və digərləri çıxış edərək yubilyarı təbrik edib, ona fəaliyyətində uğurlar diləyiblər.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Mədət Quliyevin, Daxili işlər nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin rəisi general-leytenant Arzu Rəhimovun, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevin, Gənclər və İdman naziri Azad Rəhimovun, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümovun, Rusiya Müdafiə nazirinin müavini Yuri Borisovun, Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin hərbi attaşeliyi adından və başqa təşkilatlardan yubilyara ünvanlanmış, eləcə də müxtəlif ölkələrdən daxil olan təbrik məktubları oxunub, hədiyyələr təqdim edilib.

Sonda yubilyar çıxış edərək deyib: "Mən orduda 46 il xidmət etmişəm və mənim general kimi formalaşmağımda ümummilli lider Heydər Əliyev aparıcı rol oynayıb. Ulu Öndər həmişə mənim taleyimlə maraqlanır, hər cür kömək edirdi. Mən bunun üçün ona son dərəcə minnətdaram".

T.Ağahüseynov Prezident İlham Əliyevin ölkə veteranlarına xüsusi diqqət və qayğı göstərdiyini vurğulayaraq, veteranların bundan sonra da göstərilən etimadı doğruldacaqlarına əminliyini bildirib.

**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# Bu yol qələbəyə aparacaq!..

*Səngərlərdə döyüş növbətçiliyi aparan əsgərlərimizin xatirələri də qələbəylə qoşa xatırlanacaq. Səngərlərə gedirik. Yol yoldaşımız təcrübəli zabit Fikrət Qasımov da mənfur düşmənin atəşkəsi pozmasından, cəsur Azərbaycan əsgərinin düşməni cavab atəşi ilə susdurmasından fərəhlə danışır. Xatirələrini bizimlə bölüşür. Yuxusuz gecələrini, unutmadığı qorxmaz əsgərlərini yadına salır. Təcrübəli zabit erməni vandallarının qorxaqlığından söz açaraq bildirir ki, bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətdir. Düşmən bilir ki, Azərbaycan Ordusu ən müasir silah və texnikalara malikdir, öz tarixi torpaqlarını geri qaytaracaq.*



Daşlı-kəsəkli yollarda yağış səbəbindən hərəkət bir az çətinləşib. Zabit Fuad Axundov bildirir ki, bu torpaqlar düşməndən aprel döyüşlərində azad edilib. "Gördüyünüz kimi, mühəndis-istehkamçılarımız rahat və təhlükəsiz hərəkət üçün yolları genişləndirir, bərkitmə işləri aparır".

Təcrübəli zabit onu da bildirir ki, Azərbaycan Ordusu dövlət rəhbərliyinin diqqət və qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşayır. "Döyüş postlarına yollar salınır, müasir əsgər yataqxanaları tikilir, əsgərlərin rahat xidmət keçməsi üçün hər cür şərait yaradılır. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması əsgərlərin əlverişli mühitdə xidmət keçməsi ilə nəticələnir. Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti əsgərinin qayğısına qalır, ona hər bir şəraiti yaradır. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərləridir. Dövlət başçısı ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara qələbəyə inam aşılayır."

Mövqeyə çatırıq. Gizir Eldar Eynalov zabit Fikrət Qasımova heç bir hadisənin baş verməməsi, nisbi sabitliyin olması ilə bağlı məruzə edir.



Eldar Masallı rayonunda anadan olub. 2013-cü ildən gizir kimi ordu sıralarında xidmət edir.

Əsgərlərin istirahət vaxtıdır, şəxsi heyətin bir hissəsi döyüş mövqeyində düşməni nəzarətdə saxlayır. Hər biri ayrı-ayrılıqda qəhrəman, birlikdə yenilməz bir ordudur.

"Hamımız işğalda olan torpaqlarımızın həsrətindəyik. Onu da qeyd edim ki, yuxarı komandanlıq tez-tez döyüş postuna gəlir, problem və qayğılarımızla maraqlanır. Diqqət mərkəzində olduqlarını bilən əsgərlər silaha ürəklə sarılır, düşmənin istənilən təxribatının qarşısını almağa hazır olurlar", - gənc komandir deyir.

Bir anlıq düşünürəm. Eldar hər gün bu səngərləri dəfələrlə gəzir, əsgərlərin döyüş növbəsini dəyişir, mövqelərdəki vəziyyətlə maraqlanır. Əldə silah, ürəkdə Vətən sevgisi və Eldar kimi mərd oğullar varkən Vətən heç zaman darda qalmaz...

Atıcı əsgər Ülvi Xəlilov döyüş növbəsindədir. Hərbi xidmətə Sabirabad rayonundan çağırılıb:

- Neçə aydır hərbi xidmətdəyəm. Azərbaycanlı olmağımla daim fəxr edirəm, fəxr etdiyim Vətənimin əsgəri olmaqdan isə ikiqat qürur duyuram. Tək mən yox, əsgər yoldaşlarımın hər biri burada olduqları üçün sevinclidir. Çünki biz Azərbaycan əsgəriyik və əsl döyüşçü kimi formalaşırıq. Torpaqlarımız yağı tapdağındadı. Əmin olun ki, aprel döyüşlərində döyüş postlarını qoyub qaçan ermənilər, bir gün düşmən işğalında olan torpaqlarımızı azad etmək əmri aldığımızda da qaçacaqlar. Bütün mənfi xüsusiyyətləri özündə birləşdirən düşmənlə üz-üzəyik. Ali Baş Komandan döyüş əmri verərsə, ermənilərdən tarixi torpaqlarımızı alacağımıza hər birimiz əminik.

Gizir Eldar Eynalov növbəti mövqedə müşahidə aparıldığını deyir. Döyüş növbəsi aparan əsgər Kamran Kazımov Qusar rayonundan hərbi xidmətə çağırılıb.

- Hərbi xidmətə yollanarkən valideynlərimə, dostlarıma Vətənimə layiqli əsgər olacağıma söz vermişəm. Gənc əsgər hazırlığı zamanı da nizam-intizamlı olmağa çalışır, silah-texnikanı dərindən öyrənirdim. Döyüş postunda, düşmənlə üz-üzə durmaq üçün belə vərdişlərə ehtiyacım olacağını bilirdim. Bu gün silahım



və əsgər yoldaşlarım ən etibarlı dostlarımdı. Həm canımızı, həm canımızdan çox sevdiyimiz Vətənimizi bir-birimizə əmanət edirik.

Axşama doğru hava bir az da soyuyur, səngərlə irəlilədikcə üzümüzə qar dənəcikləri dəyir. Eldar axşamlar qarın az-az yağdığını, lakin torpağa tam oturmadığını deyir.

Əsgər Rəfi Rəhimli hərbi xidmətə Bakıdan çağırılıb, təcrübəli və nizam-intizamlı olduğunu öyrənirik.

- And içmişik, Vətən andı pozulmaz, - əsgər Rəfi Rəhimli deyir. - Biz ata-babalarımızdan öyrənmişik Vətən sevgisini. Bu sevgi uğrunda canından keçən, dastanlara mövzu olan qəhrəmanlar çıxıb sıralarımızdan. Mübariz, Fərid kimi düşməni lərzəyə salan oğullarımız olub. Biz də onlarla eyni qanı daşıyırıq, biz də onlar kimi bu torpağın övladlarıyıq. Tarixin hər dövründə igidlik simvolu olan babalarımızın ruhu qəhrəmanlığımızdan daim fərəhlənəcək.

Növbəti müşahidə mövqeyində əsgər Elmuraz Nəbiyevlə söhbətləşirik. Hərbi xidmətə Qazax rayonundan çağırılıb. Müşahidəçi əsgər havanın dumanlı olmasına baxmayaraq düşməni nəzarətdə saxladıqlarını bildirir: "Artıq xidmətimin yarıdan çoxu geridə qalıb. Məndən sonra gələn əsgərlərə bacardığım qədər bildiklərimi öyrətməyə çalışıram. Çünki bu Vətən bizlərə, bizdən sonra isə Rəhimlərə, Cabirlərə, Fuadlara əmanətdir. Bu torpaq uğrunda ölmək də, öldürmək də, gecə-gündüz bilmədən Vətən keşiyində durmaq da şərəfdir. Bu gün əlimdə silah, ürəyimdə Vətən sevgisi ilə torpaqlarımızın azad edilməsi əmrini gözləyirəm."

Əsgər Fuad Məmmədov da deyir ki, Ali Baş Komandanımız əmr verdiyi gün əsgər yoldaşlarımla Vətən uğrunda döyüşlərə qatılacam. Biz Vətən sevgisi ilə Qarabağ həsrəti çəkən Azərbaycan əsgəriyik.

Döyüş növbəsinə yollanan əsgərlər Emil Rəhimli və Cabir Hüseynov müvafiq təlimatları dinlədikdən sonra mövqelərinə gedirlər. Bu, Qələbəyə gedişin başlanğıcıdır.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Gəncliyimiz qürurumuzdur

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

*Bugünkü gənclər müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. İyirmi minə yaxın könüllü, - onların böyük əksəriyyəti yerli uşaqlardır, insanlardır, gənclərdir, - gecə-gündüz çalışmışdır. Onlar gecə-gündüz peşəkarlıqla, ustalıqla, məharətlə çalışaraq idmançılara, qonaqlara böyük mədəniyyət, hörmət, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və mehribanlıq göstərmişlər. Doğrudan da, bizim gələcəyimiz etibarlı əllərdədir. Azərbaycanın gələcək inkişafı gənclərin əlində olmalıdır. Gənclər bilikli, savadlı, peşəkar və vətənpərvər olmalıdırlar".*

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, 2 Fevral Gənclər Günü ilə əlaqədar Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrində, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, mərkəzi və qarnizon zabitlər evlərində silsilə bayram tədbirləri keçirilib.*



2 Fevral Gənclər Günü münasibəti ilə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşəbbüsü ilə "N" hərbi hissəsində də tədbir keçirildi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.



Tədbiri açıq elan edən kapitan Vüsal Kərimov bildirdi ki, Gənclər Gününün təntənəli surətdə qeyd edilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır: "Ulu Öndərin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu.1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndərin prezidentliyi dövründə ölkə gəncləri onun diqqət və qayğısını daim öz üzərlərində hiss etdilər. Əsası Ulu Öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişib. Müasir dövrdə gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Sonra Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədova gənclərimizi əlamətdar gün münasibəti ilə təbrik edərək, onlara xidmətlərində uğurlar arzuladı. O, fikrini ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinə ünvanladığı sözlər ilə bitirdi: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir. Siz, Azərbaycan xalqının gənc nəsli, bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük rol oynayırsınız. Eyni zamanda, müstəqillik yoluna düşmüş Azərbaycan dövlətinin gələcəyinin, xalqımızın daha firavan yaşamasının təməlini qoymaqda iştirak edirsiniz. Buna görə də sizə ümid bəsləyirik."

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin solistlərinin rəngarəng çıxışları ilə sona çatdı.

* * *

Ölkəmizin müasir həyatında cəmiyyətin aparıcı təbəqəsi olan gənclərin xidmətləri böyükdür. Müasir dövrdə sağlam ruhlu, yüksək intellektə, vətənpərvərlik ruhuna malik gəncliyin formalaşması ölkəmizin uğurlu inkişafının əsas amillərindən biridir.

"N" hərbi hissəsində də Gənclər Günü ilə bağlı tədbir keçirildi. Giriş sözü ilə çıxış edən Tural Əlibabayev qeyd etdi ki, gənclik illəri insan ömrünün ən unudulmaz və gözəl çağlarıdır. "Yeni nəslin təhsil və tərbiyəsinin düzgün qurulması gələcək həyatımızın uğurlu təminatıdır. Hər il olduğu kimi, bu il də hərbi hissəmizdə Gənclər Günü təntənəli şəkildə qeyd edilir. Nəzərə alsaq ki, müasir ordumuzda gənc hərbi qulluqçularımız böyük əksəriyyət təşkil edir, onda hərbi hissələrdə Gənclər Gününün keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini başa düşərik. Ulu Öndərin rəhbərliyi ilə 1996-cı il fevralın 2-də gənclərin birinci forumu keçirildi. Dahi şəxsiyyət Heydər Əliyevin sərəncamı ilə 1997-ci ildən fevralın 2-si Azərbaycanda Gənclər Günü kimi qeyd edildi".

Natiq çıxışına davam edərək bildirdi ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənclərimizin müasir Azərbaycanın inkişafında rolunu daim yüksək qiymətləndirir. "Bu müdrik və uzaqgörən siyasətin nəticəsidir ki, gənclərimizin ölkənin ictimai-siyasi və iqtisadi həyatında rolu ildən-ilə artır. Son dövrlər Azərbaycanın bütün sahələrində gənclər layiqincə təmsil olunur, onlara yüksək etimad göstərilir. Müasir gənclərimizin potensialından ölkənin mənafeyi üçün düzgün istifadə edilməsinin nəticəsidir ki, bu avanqard dəstə gələcəyimizin etibarlı təminatçısına çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahəyə olan diqqətinin parlaq nümunələrindən biri də 2007-ci ilin "Gənclər ili" elan edilməsidir.



Polkovnik-leytenant Zöhrab İmamquliyev də gənclərimizin müasir dövrdə ölkənin fəal quruculları olduğunu bildirdi. "Hər bir millətin gəncliyi onun gələcəyi və gücüdür. Gənclərimizin düzgün istiqamətləndirilməsi xalqın etibarlı gələcəyini təmin edir. Müharibə şəraitində olan bir millət olaraq bizim hazırlıqlı, yüksək hərbi biliyə malik əsgərlərə, döyüşçülərə ehtiyacımız var. Əsgərlərimiz dövlətimizin sütunlarıdırlar. Biz Cavanşir, Şah İsmayıl, Heydər oğluyuq. Müharibələrdə Azərbaycan gənci cəsur, mərd olduğunu dəfələrlə göstərib və göstərməkdədir. Aprel döyüşlərində gənc Vətən oğullarımız öz gücünün az hissəsini göstərməklə qısa müddət ərzində əzəli və əbədi torpaqlarımızın bir hissəsini işğaldan azad etdilər. Bizim gənclərimiz, əsgərlərimiz də Mübarizi, Çingizi, Fəridi və digər Vətənimiz üçün canlarını əsirgəməyən oğullarımızı özlərinə örnək və nümunə bilməlidirlər. Onlar Vətənə bağlılığın, torpağa, millətə olan sədaqətin nümunəsidirlər".

Zabit onu da qeyd etdi ki, bu gün Azərbaycan gəncləri təkcə hərb sahəsində deyil, digər sahələrdə də - idmanda, elm və təhsildə, ən başlıcası, dövlət quruculuğunda öz imkanlarını əsirgəmirlər. Azərbaycan gənci dünya miqyasında keçirilən tədbirlərdə də ölkəmizi layiqincə təmsil edir. Prezident İlham Əliyevin "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamından sonra yüzlərlə gəncimizin sorağı dünyanın nüfuzlu təhsil, elm ocaqlarından gəlir. Xarici ölkələrdə Vətənimizi layiqincə təmsil edən Azərbaycan gənci tarixi həqiqətlərimizi dünya xalqlarına catdırır".

Tədbir Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə yekunlaşdı.

**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Azərbaycan Ordusu - 100*

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə hərbi diplomatiya

Polkovnik Atamalı ŞAHBAZOV,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının
Adyunktura və elm şöbəsinin
hərb tarixi üzrə dosenti



Azərbaycan Xalq Cümhuriyyətinin qərar tutduğu geostrateji məkan və mürəkkəb hərbi-siyasi şərait, əldə edilmiş müstəqilliyin qorunması üçün bütün sahələrdə olduğu kimi, hərbi diplomatiya sahəsində də fəal siyasətin həyata keçirilməsini tələb edirdi. Belə bir siyasət, bir tərəfdən Azərbaycanın müstəqilliyinə qarşı istiqamətlənmiş ciddi hərbi təhlükənin qarşısının alınmasında, uyğun beynəlxalq şəraitin formalaşmasına zəmin yaratmaqla bərabər, həm də zəruri bazası və infrastrukturu olmayan Cümhuriyyət Ordusunun formalaşmasına əlavə imkanlar aça bilərdi. Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən dərhal sonra ilk hərbi diplomatik fəaliyyət, məhz Azərbaycanla Osmanlı Türkiyəsi arasında əməkdaşlıq müqaviləsi imzalanması və həmin müqaviləyə əsasən, Azərbaycanla Osmanlı Türkiyəsi arasında tarixi hərbi əməkdaşlıq qurulması ilə başlamışdı. Azərbaycanın müstəqilliyi və bütünlükdə Azərbaycan xalqının mövcudluğu üçün real təhlükə olan bolşevik-daşnak təcavüzünün qarşısının alınması üçün Osmanlı Türkiyəsinin məhdud hərbi qüvvələri Azərbaycana gəldi. Osmanlı hərbi qüvvələri ilə Azərbaycanın milli hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Hər iki ölkə arasında çox səmərəli və faydalı hərbi əməkdaşlıq 1918-ci ildə Bakının yad qüvvələrdən təmizlənməsinə və bu şəhərin Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrilməsinə imkan verdi.

Birinci Dünya müharibəsinin nəticələrini özündə əks etdirən Mudros sülh müqaviləsinin şərtlərinə əsasən, Osmanlı hərbi qüvvələri Azərbaycanı tərk etmək məcburiyyəti qarşısında qalanda, hökumətin qərarı ilə Cümhuriyyətin Hərbi Nazirliyi bərpa edildi. Hərbi Nazirliyin təşkilatlandırılması çar Rusiyası ordusunda tam artilleriya generalı rütbəsinə qədər yüksəlmiş Səməd bəy Mehmandarova həvalə edildi. Onun Hərbi nazir təyin edilməsi, ordusu çox zəif olan Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun səmərəli və peşəkar səviyyədə aparılmasında, istiqamətləndirilməsində və müdafiə qabiliyyətinin gücləndirilməsində müqayisə edilməyəcək dərəcədə sıçrayış yaratdı. Hökumət və eyni zamanda Hərbi Nazirlik ölkənin daxili imkanlarını səfərbərliyə almaqla yanaşı, həm də fəal xarici siyasət aparılmasına diqqəti xeyli gücləndirdi. İlk növbədə, Mudros sülh müqaviləsinin şərtlərinə görə, Azərbaycanın nəzarət altına alınması üçün müttəfiq dövlətlər adından Bakıya göndərilmiş ingilis hərbi qüvvələrinin komandanlığı ilə qarşılıqlı əlaqələrin qurulmasına səy göstərildi. İngilis hərbi komandanlığının tələbi ilə Hərbi Nazirlik Bakıdan Gəncəyə köçürülmüş və orada fəaliyyət göstərməli olmuşdur. Eyni zamanda, həmin tələbə əsasən, bütün milli hərbi qüvvələr də Bakıdan çıxarılmışdı. Sonradan, Hərbi Nazirliyin rəhbərliyinin fəal siyasəti nəticəsində, 1919-cu il aprelin 5-də Azərbaycanın məhdud sayda hərbi qüvvələrinin Bakıya dönməsinə icazə verilmişdir.

Bundan başqa, çar Rusiyasından Azərbaycana miras qalmış bir neçə hərbi gəmi də ingilis qüvvələrinin nəzarəti altına keçmişdir. Həmin gəmilərin geri alınması üçün də ingilis hərbi komandanlığı ilə fəal məsləhətləşmələr aparılmışdır. Azərbaycan Hökumətinin ingilis komandanlığı ilə apardığı yazışmalar bunu sübut edir. Amma bütün cəhdlərə baxmayaraq ingilis komandanlığı Xəzər Donanmasına aid olan hərb gəmilərin əsas hissəsini Azərbaycana deyil, Denikin ordusuna təhvil vermişdir. Lakin sonradan həmin gəmiləri geri almaq mümkün olmuşdur.

Denikin ordusunun hücum təhlükəsinin qarşısının alınması Azərbaycan Xalq Cümhuriyyətinin hərbi diplomatiyasının fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Denikin təhlükəsi yalnız Azərbaycana qarşı deyil, bütünlükdə Cənubi Qafqaza qarşı istiqamətlənmişdi. Bu təhlükənin qarşısının alınması üçün Azərbaycanla Gürcüstan arasında çox fəal və səmərəli hərbi diplomatik əlaqələr quruldu. Məhz mövcud şəraitdə Gürcüstanla qarşılıqlı hərbi əlaqələrin qurulması hər iki dövlət üçün strateji əhəmiyyət kəsb edirdi. Həmin hərbi əməkdaşlıq özünün hüquqi əksini 1919-cu il iyunun 16-da iki respublika arasında imzalanmış hərbi sazişdə tapdı.

Sazişi Azərbaycan hökuməti tərəfindən xarici işlər naziri Məmmədyusif Cəfərov, Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov və Baş Qərargah rəisi general-leytenant Məmməd bəy Sulkeviç, Gürcüstan tərəfindən isə Xarici İşlər naziri Geqeçkori, Hərbi nazir Ramişvili, Hərbi nazirin köməkçisi Qedevanov və general Odişelidze imzalamışdı. Tiflisdə imzalanmış üç il müddətinə on maddəli həmin sazişin əsas mahiyyəti respublikaların hər hansı birinə xarici müdaxilə olacağı halda digər respublika ona mümkün hərbi köməyi göstərməsi idi. Bu sazişin imzalanması həmin dövrdə Azərbaycan dövlət və hökumət rəhbərliyi, habelə siyasətçilər tərəfindən son dərəcə yüksək qiymətləndirildi. 1919-cu il iyunun 27-də Parlamentin fövqəladə iclasında həmin saziş ratifikasiya olundu. Sazişdən əlavə, iki dövlət arasında hərbi-texniki əməkdaşlıq haqqında sənəd də imzalandı. Həmin sənədə müvafiq olaraq, Gürcüstan həm hərbi-texnika və sursat baxımından, həm də kadrların hazırlanması baxımından Azərbaycana dəyərli kömək göstərdi. İki ölkə arasında hərbi əməkdaşlığın uğurlu davamı kimi 1920-ci il yanvarın 20-də Azərbaycan və Gürcüstanın müştərək Hərbi Şurası təsis edildi. Azərbaycan tərəfindən bu şuraya Hərbi nazirin köməkçisi general-leytenant Əlağa Şıxlinski və Baş Qərargah rəisi general-leytenant Məmməd bəy Sulkeviç, Gürcüstan tərəfindən isə general Odişelidze və general Kutatelidze təyin edilmişdir.

Qarşılıqlı hərbi əməkdaşlığın yüksək səviyyədə qurulması üçün Gürcüstanda Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Attaşeliyi də təsis edildi. 1919-cu il martın 26-da Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov 148 nömrəli əmri ilə o zaman Hərbi Nazirliyin Hərbi topoqrafiya şöbəsinin rəisi olmuş podpolkovnik Məmməd bəy Əliyevi bilavasitə Ordunun Baş Qərargah rəisinə tabe olmaqla, Azərbaycan Respublikasının Gürcüstan Respublikasındakı Diplomatik Missiyasında Hərbi Attaşe vəzifəsinə təyin etdi. İkitərəfli hərbi əlaqələr üçün Hərbi Atteşelik aparatının vacibliyini bilən Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov 27 may 1919-cu ildə 271 nömrəli digər əmri ilə isə Gəncə Praporşiklər məktəbini fərqlənmə ilə bitirmiş praporşik (Cümhuriyyət dövründə ilkin zabit hərbi rütbəsi) Əsgər Əsgərov-Kəngərlinskini Gürcüstan Respublikasındakı Diplomatik Missiyada Hərbi Attaşenin tapşırıqçısı vəzifəsinə təyin edir (Sonralar praporşik Əsgər Əsgərov-Kəngərlinski Sovet dövründə 1921-ci ilin iyulundan 1922-ci ilin iyununa kimi Türkiyədəki Azərbaycan Sovet Respublikasının Diplomatik missiyasında Hərbi attaşe vəzifəsində xidmət etmiş və Diplomatik Missiya bağlanarkən "Azərbaycanın Faciəsi" adlı əlyazmasına görə Sovet xüsusi xidmət orqanları tərəfindən cəzalandırılması üçün konvoyla geri gətirilərkən qaçmış və böyük ehtimalla Turkiyədə gizlənmişdi).

Gürcüstanda Hərbi Attaşeliyin təsis edilməsi bütünlükdə Azərbaycanın hərbi diplomatiya tarixində yeni bir səhifə idi. Çünki bu Hərbi Attaşelik Azərbaycanın müstəqilliyi dövründə ilk Hərbi attaşeliyi idi. Həmin Attaşeliyin səmərəli fəaliyyəti nəticəsində həm Gürcüstandan Azərbaycan Ordusunun təchizatı üçün zəruri olan xeyli sayda silah və hərbi texnika almaq, həm də həmin ölkənin hərbi məktəblərində xeyli sayda Azərbaycan zabitinin müəyyən ixtisaslar üzrə təkmilləşdirilməsi mümkün oldu. Digər tərəfdən də qarşılıqlı şəkildə imzalanmış sazişə uyğun olaraq, Azərbaycanın şimal sərhədlərinin, Abşeronun və Bakının müdafiə sisteminin yaradılmasına təcrübəli gürcü zabitləri cəlb edildilər. Qarşılıqlı razılaşmaya əsasən, gürcü zabitləri döyüş əməliyyatlarında iştirak etmədən Azərbaycan Ordusu sıralarında xidmət etmək imkanı da əldə etdilər. Qeyd etmək lazımdır ki, Azərbaycan Ordusu sıralarında xeyli sayda gürcü zabiti xidmət etmişdir. Onlardan ikisi, Azərbaycan Ordusunun general-kvartirmeysteri polkovnik Karqaleteli və Hərbiyyə məktəbinin rəisi polkovnik Çxeidze Azərbaycan hökumətinin qərarı ilə nümunəvi xidmətlərinə görə general-mayor rütbəsinə layiq görülmüşdülər.

Gürcüstanla imzalanmış sazişə əsasən, qarşı tərəfə zərurət yarandığı anda Azərbaycan tərəfindən hərbi kömək göstərilməsi üçün konkret plan və onun icrası üçün hərbi qüvvə və vəsaitlər müəyyənləşdirilmişdi. Arxiv sənədlərindən aydın olur ki, həmin sazişə əsasən, 1920-ci ilin yanvarında Hərbi Nazirlik Gürcüstana hərbi müdaxilə olduğu zaman göndəriləcək qoşun hissələri barədə məxfi hesabat hazırlamışdır.

Həmin hesabata əsasən, Azərbaycan tərəfindən Gürcüstan ərazisinə göndəriləcək və Gürcüstanın hərbi komandanlığının tabeliyinə veriləcək hərbi hissələr aşağıdakı kimi təyin olunmuşdu:

1-ci piyada diviziyasından: 1-ci Cavanşir alayı - Xankəndidən, 2-ci Zaqatala alayı - Zaqataladan, 3-cü Gəncə alayı - Gəncədən, 1-ci artilleriya briqadası - 1-ci və 4-cü batareya Xankəndidən, 2-ci və 3-cü batareya Gəncədən, diviziyanın qərargahı Gəncədən.

Süvari diviziyasından: 1-ci Qarabağ alayı - Xankəndidən, 3-cü Şəkı alayı - Gəncədən, Süvari-dağ batareyası - Gəncədən.

2-ci Zaqatala alayı Çnoris-Çkali stansiyasına Katexi-Bostan və ya Balakən-Laqodexi yaşayış məntəqələrini qət etməklə çatmalı, digər hərbi hissələrin isə Gəncə-Tiflis dəmir yolu vasitəsi ilə daşınması hesabatda göstərilmişdir.

Gürcüstan tərəfi də eyni qayda ilə Azərbaycan tərəfinə hərbi müdaxilə edildiyi təqdirdə hesabata uyğun hərbi hissələr göndərməyi öz öhdəliyinə götürmüşdü. Lakin 1920-ci ilin aprelində bolşevik işğalı o qədər sürətlə baş verdi ki, Gürcüstandan hərbi kömək almaq imkanı olmadı. Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin əsas hərbi qüvvələri Qarabağda Ermənistan hərbi qüvvələrinin hərbi təcavüzünün qarşısının alınmasına göndərilmişdi. Ona görə də şimal sərhədləri, demək olar ki, müdafiəsiz qalmışdı.

Cümhuriyyət dövrünün hərbi diplomatiyasının tarixinə yazılacaq maraqlı hadisələrdən biri də hərbi təchizat əldə edilməsi üçün Hərbi Nazirliyin nümayəndə heyətinin Avropaya səfər etməsi idi. 1919-cu il oktyabrın 20-də Azərbaycanın Hərbi naziri tam artilleriya generalı Səməd bəy Mehmandarovun tapşırığına əsasən, Hərbi Nazirlik nümayəndələri, başda 2-ci Azərbaycan piyada diviziyasının komandiri general-mayor İbrahim ağa Usubov olmaqla, hərbi ləvazimat idarəsindən kollej asessoru (çar Rusiyasında mülki rütbə) Xanbudaqov İtaliyanın Roma şəhərinə ikitərəfli əlaqələrin yaradılması və hərbi ləvazimatların alınması məqsədi ilə səfər etmişdi. Nümayəndə heyəti İtaliyanın Müdafiə Nazirliyi ilə ikitərəfli əlaqələrin yaradılmasına nail olmağa çalışsalar da, İtaliya Müdafiə Nazirliyi belə əməkdaşlığa meyilli olmamışdır. Bu məqsəd ilə general-mayor İbrahim ağa Usubov Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarovun tapşırığına əsasən, İtaliyanın hərbi ləvazimat hazırlayan "Kiano Qella Komp" şirkəti ilə 1919-cu ilin 23 noyabr tarixində Roma şəhərində Azərbaycan Ordusu üçün 25 min dəst, yüksək rütbəli zabitlər üçün isə əlavə 500 dəst, onlardan böyük ölçü 20%, orta ölçü 50% və kiçik ölçü isə 30% olmaq şərti ilə hərbi geyim (piyada botinkası, üst geyim mundir dəsti, ağ sarğı, qış paltosu və ayaq sarğısı) hazırlanması məqsədi ilə müqavilə imzalanmışdı. Müqavilənin şərtlərinə görə, göstərilən əmlakın 1919-cu ilin 20 dekabr tarixinədək çatdırılması planlaşdırılsa da, lakin həmin əmlak 1920-ci ilin aprelində Bakıya çatdırıldı. Bakının XI Qızıl ordu tərəfindən işğalı ərəfəsində milli ordunun hərbi hissə komandirləri bolşeviklərin əlinə keçməməsi məqsədi ilə İtaliyadan gətirilmiş bütün geyim ləvazimatlarını şəxsi heyətə paylamış olsalar da, o zaman Hərbi və Dəniz Komissarı olmuş Çingiz İldırımın əmri ilə bütün ləvazimatlar şəxsi heyətdən geri alınaraq XI Qızıl ordunun zabit və əsgər heyəti tərəfindən kortəbii şəkildə mənimsənilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə formalaşmış hərbi diplomatiya Azərbaycanın hərb tarixinin və Azərbaycanın hərbi diplomatiya tarixinə qızıl hərflərlə yazılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi diplomatiyasından qaynaqlanan ənənələr bu gün də uğurla Müdafiə Nazirliyi tərəfindən davam etdirilməkdədir.

# Qoşunlarda yeni tədris dövrü başlayıb



Azərbaycan Ordusunun qoşun növ və qisimlərinin birlik, birləşmə və hərbi hissələrində yeni tədris dövrü başlayıb. Bütün hərbi hissələrdə mitinqlər təşkil edilib və burada tədris dövrü üçün əsas məqsədlər və vəzifələr, eləcə də onların icra qaydaları diqqətə çatdırılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ordumuzda tədris prosesi Ali Baş Komandanın tələblərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına müvafiq olaraq döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə quruda, dənizdə, havada real




təhdid və risklərin nəzərə alınması ilə təşkil edilərək keçiriləcək.

Dərslərin ilk günü bütün hərbi hissələrdə yüksək effektivlik və keyfiyyəti ilə fərqlənən döyüş hazırlığı üzrə məşqlər keçirilib.

# "Təlimdə uğur - döyüşdə qələbə"

Azərbaycan Ordusu maddi-texniki bazasının üstünlüyü, peşəkarlıq baxımından bölgədə ən yüksək mövqelərə malik olmaqla yanaşı, dövlətinin və xalqının təhlükəsizliyini qorumağa qadir bir ordudur. Həm texniki təchizat, həm də döyüş qabiliyyəti baxımından dünya miqyasında güclü ordular sırasında qərarlaşan Azərbaycan Ordusu istənilən hərbi vəzifəni icra etməyə qadirdir. Tarixi torpaqlarımızın işğaldan azad edilməsi zərurəti şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə olmasını, istənilən hərbi vəzifəni icra etməyə qadir olmasını tələb edir. Tələb olunan döyüş hazırlığı isə həyata keçirilən müxtəlif formatlı təlimlərlə birbaşa bağlıdır. Ona görə də təlimlərin mütəmadi keçirilməsi və onun diqqət mərkəzində saxlanılması Müdafiə Nazirliyi rəhbərliyinin qarşıya qoyduğu tələbdir. "Ən yaxşı komanda qərargah maşını heyəti" adı uğrunda keçirilən təlimlər də bu qəbildəndir. "N" hərbi hissəsinin rabitəçiləri 2017-ci ilin planına uyğun olaraq "Ən yaxşı komanda qərargah maşını heyəti" adı uğrunda keçirilən yarışlarda iştirak ediblər və birinci yerə layiq görülüblər. Onlarla görüşüb yarış barədə təəssüratlarını öyrənirik.

Radiomanqa komandiri kiçik çavuş Tarıyel Muxtarov söhbət zamanı bildirir ki, 2017-ci ildə əldə etdikləri nailiyyət ilk uğurları deyil: "Rəhbərlik etdiyim heyət 2015-ci və 2017-ci illərdə keçirilən yarışların birincisi oldu. Bu birincilik və ixtisas hazırlığı zamanı keçirilən məşğələlərdə göstərdiyimiz səylərin nəticəsidi. Hər bir hərbi qulluqçu Qarabağın şanlı tarixə malik olan Vətənimizin bir parçası olduğunu yaxşı anlayır və bu torpaqlarımıza qovuşmaq üçün xidmət edir. Qeyd etmək istərdim ki, məqsədimiz, ancaq yarışlarda birinci yer tutmaq deyil, həm də bizim olanı geri qaytarmaqdı, ağlar qalan anaların, süngüyə keçirilən qocaların, yandırılan körpələrin qisasını almaqdı. Xalqımıza sevinc bəxş edəcək böyük Qələbəyə nail olmaqdı. Aprel döyüşləri sübut etdi ki, arzuladığımız qələbə uzaqda deyil və Azərbaycan Ordusu istənilən anda onu xalqımıza yaşatmağa qadirdi".



- Rabitə yoxdursa və yaxud nasazdırsa, döyüş zamanı idarəçilikdən danışmağa dəyməz, - deyə əsgər Ceyhun Babayev söhbətə qoşulur. - Öyrəndiklərimizdən bilirik ki, müharibədə qələbə müasir texnologiyadan, artilleriya sistemindən, mənəvi-psixoloji və döyüş hazırlığı baxımından hazırlıqlı əsgərlərdən, düzgün aparılan kəşfiyyatdan, atəş gücü və manevr qabiliyyətindən, etibarlı rabitə sistemindən asılıdır. Hər bir şəraitdə orduda etibarlı rabitə sistemi mühüm əhəmiyyətə malikdir. Ona görə də keçirilən təlimlər döyüş zamanı rabitənin əlaqələndirilməsini yoxlamaq və təkmilləşdirmək məqsədilə həyata keçirilir.

Sürücü-elektrik əsgər Asim Mahmudov söhbət zamanı təlimin gedişindən söz açdı: "Yarış zamanı bütün komanda-qərargah maşını heyətləri nəzəri normativi yerinə yetirdi. İlk mərhələdə sualları düzgün cavablandırdıq. İkinci mərhələdə antenaların açılması və yığılmasını, aqreqatın işə salınmasını, eyni zamanda əlaqəsiz və əlaqəli rabitənin yaradılmasını təmin etdik. Normativi xeyli sürətlə, tez yerinə yetirdik, birinci yerə layiq görüldük".

Kiçik çavuş Tarıyel Muxtarov söhbətə müdaxilə edərək bildirir ki, bizim ən böyük sevincimiz böyük Qələbəmiz zamanı olacaq. Ən əsası odur ki, Azərbaycan Ordusu qarşısında duran vəzifəsini layiqincə yerinə yetirməyə hər an hazırdı. Təlimdəki uğurumuz həmin qələbəyə bir zəmindir... Aprel zəfərimiz gələcək Qələbəmizin zəmanətidi...

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

2 fevral 2018-ci il.

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 115 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Muncuqlu, Qaralar kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Abdinli, Sarıcalı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Vətənə sevgi də silahımızdır"

Ön xətdə yerləşən "N" hərbi hissəsindəyik. Əsgərlərimiz taqım komandirlərinin rəhbərliyi altında praktiki təlim məşqi keçirlər. Soyuq qış havasına baxmayaraq, şəxsi heyət verilən tapşırıqları həvəslə yerinə yetirir. Bu da artilleriyaçılarımızın yüksək döyüş hazırlığına dəlalət edir.

Artilleriya bölməsinin şəxsi heyətlə iş üzrə komandir müavini kapitan Ayaz Qasımov ilə görüşüb söhbətləşirik. 1985-ci ildə Goranboy rayonunun Qızılhacılı kəndində anadan olub. Uşaq vaxtlarından ailəsində aldığı vətənpərvərlik tərbiyəsi, dayısının Qarabağ döyüşlərinin iştirakçısı olması onda hərb sənətinə marağı artırıb, seçimini müəyyənləşdirib. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirib, təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. 2006-cı ildən ordumuzun müxtəlif bölmələrində xidmət keçir.



Kapitan Ayaz Qasımov söhbətində bildirir ki, şəxsi heyətlə iş daha çox tabeçiliyində olan şəxslərlə fərdi qaydada ünsiyyət qurmaq, onların qayğı və problemləri ilə yaxından tanış olmaqdan ibarətdir. "Əsgərlərin sosial qayğıları, problemləri ilə birbaşa maraqlanmaq, onları imkan daxilində yerindəcə həll etmək ən başlıca məsələlərdəndir".

Həmsöhbətim şəxsi heyətin hər bir üzvünün mənəvi-psixoloji hazırlığı, ekstremal vəziyyətlərdə doğru-düzgün qərar qəbul etməsi vərdişlərinin öyrədilməsinin çox böyük önəm daşıdığını qeyd edir. Birinci növbədə bölmədə nizam-intizamı daha da gücləndirmək, onu daim yüksək səviyyədə saxlamaq üçün bölmələrdə mütəmadi işlər görüldüyünü, hər ayın sonunda yekunlar aparıldığını bildirir. Sözsüz ki, bu yekunların keçirilməsi hər bir hərbi qulluqçunun peşəkarlıq səviyyəsinin daha da artması üçün stimul yaradır.

- Şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltmək üçün ictimai-siyasi hazırlıq dərsləri, hüquq hazırlığı, kütləvi mədəni tədbirlər yuxarı komandanlıq tərəfindən təsdiq edilmiş gündəlik nizam qaydalarına uyğun keçirilir. Əsgər və çavuşlar ciddi təlimatlandırıldıqdan sonra döyüş növbətçiliyinə çıxırlar, - deyə kapitan Ayaz Qasımov qeyd edir. - Əsgərlərin fiziki hazırlığını möhkəmləndirmək və idmana marağını artırmaq məqsədi ilə idman tədbirlərinin keçirilməsinə də xüsusi diqqət ayrılır.

"Vətənpərvərlik elə bir hissdir ki, o beşikdən başlayaraq tədricən formalaşır. Hər bir əsgərin fərqli ailədən, fərqli mühitdən gəlməsi nəzərə alınaraq onlarda Vətənə, dövlətə və xalqa ülvi hisslərin formalaşdırılması da qarşıda duran ən başlıca vəzifələrdən biridir. Vətənə bağlılıq və sevgi hissi hər kəsdə həmişə yüksək olmalı, bu hisslər erkən çağlarda, ailədə yetişməlidir", - təcrübəli zabit deyir.

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# “Gənclər Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdırlar”

*"Ordu və cəmiyyət" rubrikamızın qonağı Gənclər və İdman nazirinin müavini İntiqam Babayevdir.*



**- İntiqam müəllim, "Gənclər bizim gələcəyimizdir", "Sağlam gənclik cəmiyyəti irəli aparan ən böyük qüvvədir" kimi fikirlərə münasibətinizi öyrənmək maraqlıdır.**

- Ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gənclər haqqında fikirləri siyasi-strateji əhəmiyyət daşıyır. Burada dövlətin gənclərə etimadı, etibarı, gözləntiləri öz əksini tapıb. "Gənclər bizim gələcəyimizdir" fikrində böyük məna var, çünki gələcək kökü üstündə yaranır, ənənələr və dəyərlərlə yaşadılır, nəsillərə ötürülür. Biz gənclərin fiziki və mənəvi sağlamlığı üçün birgə çalışırıq. Cəmiyyəti irəli aparan bir sıra amillər var - ölkənin iqtisadiyyatı, elmi-texniki potensialı, ictimai-siyasi mühit və s. Gənclərin bu sırada əhəmiyyətini vurğulayaraq onların "ən böyük qüvvə" olduğunu göstərmək gənclərin üzərinə məsuliyyət qoyur - onlar həm iqtisadiyyatda, həm ictimai-siyasi münasibətlərdə, həm də elm və təhsildə sağlam və güclü olmalıdırlar. Dövlətimiz də bunun üçün müvafiq şərait yaradır.

**- Məlumdur ki, Prezidentin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı" təsdiq edilib. Bu istiqamətdə yaxın perspektivdə hansı işlər nəzərdə tutulub?**

- Bilirsiniz ki, bu il ölkəmizdə ulu öndər Heydər Əliyevin 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi qeyd ediləcək. Ona görə 2018-ci ildə nazirlik tərəfindən keçirilən tədbirlər genişmiqyaslı və əhatəli olacaqdır. Cari ildə Azərbaycan gənclərinin VIII Forumunun, Gənclər təşkilatlarının V Respublika sərgisinin, ümummilli liderimiz Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliğ edilməsi məqsədi ilə müxtəlif tədbirlərin, "Mənim Azərbaycanım" Ümumrespublika Gənclər Festivalının, "Tarixin canlı səhifələri" VI Gənclər festivalının, İslam Əməkdaşlıq Təşkilatının Gənclər və İdman Nazirlərinin 4-cü Konfransının, "YOUTHVİSİON" III Beynəlxalq mahnı müsabiqəsinin keçirilməsi nəzərdə tutulur.

**- Respublikamızda kifayət qədər gənclər təşkilatı fəaliyyət göstərir. Onların fəaliyyəti haqqında nə deyərdiniz?**

- Gənclər təşkilatları gənclərlə iş sahəsində Gənclər və İdman Nazirliyinin əsas tərəfdaşlarından hesab olunurlar. Gənclər təşkilatlarda birləşərək öz imkan və bacarıqlarını konkret istiqamətlər üzrə səfərbər etməklə həm bir fərd kimi inkişaf edir, həm də vətəndaş cəmiyyətinin fəal iştirakçısı olurlar.

Gənclər təşkilatları ictimai qurum olaraq bu gün gənclərin problemlərinin həllində, onların inkişafında, təlim və tərbiyəsində, beynəlxalq əlaqələrin qurulmasında, bir sözlə, bütün sahələrdə təşəbbüs və layihələrlə çıxış edirlər. Hazırda 300-dən artıq gənclər təşkilatı dövlət qeydiyyatına alınıb. Son 10 ildə təşkilatların sayı 5 dəfə artıb. Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən gənclər təşkilatlarının layihələri dəstəklənir və bunun üçün dövlət büdcəsindən müvafiq maliyyə vəsaiti ayrılır.

Gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi, dünyada və Azərbaycanda baş verən hadisələrin müzakirəsi məqsədilə Gənclər və İdman Nazirliyinin yanında Gənclərlə iş üzrə İctimai Şura fəaliyyət göstərir. İndiyədək İctimai Şurada gənclər təşkilatlarının iştirakı ilə gənclərlə bağlı müxtəlif qanunlar, dövlət proqramları, milli fəaliyyət planları, konsepsiyalar və s. normativ-hüquqi sənədlərin layihələri, eyni zamanda gənclərin ictimai-siyasi həyatda fəallıqlarının artırılması ilə bağlı məsələlər müzakirə edilib.

Qeyd etdiyim fəaliyyətlər gənclər təşkilatları ilə işin sadəcə bir qismidir. Onların ümumilikdə fəaliyyətini qənaətbəxş hesab etmək olar. Bu gün gənclər təşkilatlarından gözləntilər daha çoxdur. Belə ki, təşkilatların sahələr üzrə peşəkarlaşması, daha da böyük layihələrin icrası, gənclərin asudə vaxtının faydalı təşkili və digər sahələr nəzərdə tutulur. Bir sözlə, gənclərin ölkənin layiqli vətəndaşları kimi formalaşmasında bu təşkilatların üzərinə mühüm vəzifələr düşür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının qəbul edilməsi ilə gənclər təşkilatlarının fəaliyyəti daha da artacaqdır.

**- Bu günün gəncləri sabahın əsgərləridir. Ümummilli Liderimiz deyirdi ki, gərək hər bir gənc orduya səfərbər olmağa hazır olsun və orduda xidmət etməyi özünə şərəf kimi qəbul etsin...**

- Siz düzgün vurğuladınız. Həqiqətən də, böyüməkdə olan gənc nəsil daim Vətənimizin inkişafı, onun tərəqqisi haqqında düşünməlidir. Eyni zamanda dövlətçiliyimizin qorunub saxlanması, suverenliyimizin, ərazi bütövlüyümüzün, dövlət sərhədlərimizin toxunulmazlığının keşiyində dayanmağa da daim hazır olduqlarını nümayiş etdirməlidirlər. Orduda xidmət etmək hər bir gəncin Vətən qarşısındakı borcudur. Həm mənəvi, həm də psixoloji baxımdan Vətənin müdafiəsinə hazır olmaq konkret hazırlıq prosesidir. Bu proseslər ailədən başlayaraq, məktəb illərindən formalaşaraq hərbi hissədə andiçmə mərasiminədək bir dövrü əhatə edir. Bununla da yekunlaşmır, hərbi xidmət dövrünün hər bir məqamında və sonrakı dövrlərdə də özünü göstərir. Təbii ki, həm hərbi-fiziki, həm də mənəvi-psixoloji hazırlıq prosesi müvafiq dövlət qurumlarının birgə fəaliyyəti nəticəsində həyata keçirilir. Cəmiyyətdə hərbi xidmətkeçmə ilə bağlı düzgün təsəvvürlərin formalaşdırılması, ordu-xalq birliyinin əsas mahiyyətini təcəssüm etdirən informasiyaların gənclər arasında yayılması da, təbii ki, qeyd etdiyimiz məsələlərin psixoloji məqamlarını tamamlayır. Yeri gəlmişkən deyim ki, bu məsələlərdə kütləvi informasiya vasitələrinin də rolu danılmazdır. Gənclərin hərbi xidmətə hazırlanması dövlət qurumları ilə yanaşı, ümumilikdə cəmiyyətimizin, ictimai institutların qarşısında duran vacib məsələlərdən biridir.

**- Aprel savaşında göstərilən şücaət və hünər də gəncliyə örnəkdir....**

- Tarixən yazılmış böyük qəhrəmanlıq salnaməsi xalqımızın Vətənə bağlılığını, Vətən naminə canından belə keçməyə hazır olmasını, mərdlik, igidlik, şücaət göstərməklə yanaşı, insanlığa xas olan yüksək mənəvi keyfiyyətlərə də sahib olmasını göstərir. Biz bu gün də yaşadığımız dövrə nəzər salsaq görərik ki, Azərbaycan xalqı sülhsevərliyi, humanizmi, ümumbəşəri və multikultural dəyərlərə sadiqliyi ilə dünyaya nümunə olduğunu təsdiqləyir. Sadaladığım bu yüksək mənəvi-əxlaqi və insani keyfiyyətlərlə yanaşı, xalqımızın vətənpərvərliyi, dövlətçiliyə bağlılığı - Vətənimizin sərhədlərinə, onun ərazi bütövlüyünə düşmən mövqeyi nümayiş etdirənlərə qarşı mübarizədə də eyni səviyyədə qətiyyətliliyi, barışmazlığı və həmrəyliyi ilə seçilir. Bu gün suverenliyimizə, ərazi bütövlüyümüzə təcavüz olunub, tarixi-əzəli torpaqlarımız işğal olunub. Əlbəttə ki, bununla heç vaxt barışa bilmərik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət nəticəsində ərazilərimizin işğaldan azad olunacağı gün yaxınlaşmaqdadır. Sülh yolunda davamlı addımlar atılır. Eyni zamanda Ali Baş Komandanımızın əmrini də gözləyirik. 2016-cı ilin aprelində erməni işğalçılarının təxribatlarına qarşı Azərbaycan Ordusunun layiqli cavabı bir daha ölkənin müdafiə qüdrətini və gücünü, xalqımızın döyüş əzminin yüksək olduğunu göstərdi. Əlbəttə ki, bu hadisələr də gənclərin vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir, ordu haqqında real təsəvvürləri obyektiv olaraq cəmiyyətə çatdırır. Heç bir şübhəmiz yoxdur ki, lazım olan məqamda Ali Baş Komandanımızın əmri uğurla yerinə yetiriləcəkdir. Buna ordumuzun gücü, xalqımızın birliyi və qətiyyəti əsas verir.

**- Gənc nəslin vətənpərvərlik ruhunda formalaşması üçün bir təcrübəli mütəxəssis olaraq hansı təklifləri irəli sürürsünüz?**

- Mən artıq bu sualınıza demək olar ki, cavab verdim. Əlavə olaraq bir qədər məsələyə daha geniş aspektdən yanaşsaq, onu deyə bilərəm ki, gənclərin vətənpərvərlik tərbiyəsi bu günümüzün reallığı baxımından iki əsas istiqamətdə həyata keçirilir. Birinci istiqamət tariximizin gənclərə öyrədilməsi, onların milli-mənəvi dəyərlərimizi yaşatmağa, ümumbəşəri dəyərlərə hörmətlə yanaşmağa, mədəni-irsimizi qoruyub saxlamağa təşviq edilməsi, dilimizin, dini dəyərlərimizin inkişafında, azərbaycançılığın milli məfkurəsinin əsası kimi dərk edilməsində onların rolunun artırılmasıdırsa, ikinci istiqamət hərbi vətənpərvərlik tərbiyəsidir. Hər iki istiqamət bir-birinə sıx bağlıdır. Çünki silah götürüb Vətənin müdafiəsinə qalxan gənc öz kimliyini, tarixi keçmişini bilmədən, nə üçün mübarizə apardığını dərk etmədən yüksək şücaət göstərə bilməz. Ona görə də gənclərin vətənpərvərlik tərbiyəsində cəmiyyətimizin bütün təbəqələri, ailə institutları, təhsil sistemi və ictimai-sosial institutlar birgə çalışmalıdırlar.

**- Sonuncu ənənəvi sualımız: İntiqam müəllim, ordumuzun şəxsi heyətinə arzu və istəkləriniz...**

- Əlbəttə ki, ilk növbədə Azərbaycan Ordusunun tərkibində hərbi xidmət keçən, soyuq səngərlərdə gecəli-gündüzlü ayıq-sayıqlığı ilə Vətənin müdafiəsində, onun keşiyində duran əsgər və zabitlərimizə möhkəm cansağlığı arzulayıram. Arzulayıram ki, öz xidməti dövrünü uğurla başa vurub sağ-salamat doğma ocaqlarına qayıtsınlar. İstəyim isə ondan ibarətdir ki, tezliklə torpaqlarımız düşmən işğalından azad olunsun, ərazi bütövlüyümüz təmin edilsin.

**- Maraqlı müsahibəyə görə çox sağ olun.**

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Yanvarda Müdafiə Nazirliyinin təşkilatçılığı ilə hərbi vətənpərvərlik mövzusunda 20-dək tədbir keçirilib

Müdafiə Nazirliyi 2018-ci il üçün tədbirlər planına əsasən, yanvarda dövlət, yerli və xarici qeyri-hökumət təşkilatları, icra hakimiyyətləri, eləcə də ictimai qurumlarla birlikdə hərbi hissələrdə müxtəlif mövzularda tədbir və layihələr həyata keçirib. Nazirliyin təşkilatçılığı ilə Ağdam, Bərdə, Beyləqan, Tərtər, Xocavənd, Qusar, Füzuli, Bakının Yasamal və Qaradağ rayonları, o cümlədən Sumqayıt şəhər icra hakimiyyətləri ilə birgə cəbhəboyu zonada yerləşən hərbi hissələrdə, həmçinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrində hərbi vətənpərvərlik mövzusunda 20-dək tədbir təşkil olunub, şəxsi heyətlə görüşlər keçirilib.

20 Yanvar - Ümumxalq Hüzn Günü, hərbi hissələrin yaradılmasının ildönümləri, Azərbaycanın Milli qəhrəmanlarının anım mərasimləri və digər tədbirlərdə şəxsi heyət, yerli ictimaiyyətin nümayəndələri, veteranlar, tələbələr yaxından iştirak ediblər.

Kütləvi informasiya vasitələrində dərc olunması məqsədilə yanvarda Müdafiə Nazirliyi tərəfindən 87 rəsmi məlumat, 53 foto, 8 videomaterial hazırlanıb, media nümayəndələrinin 9 sualı cavablandırılıb. Televiziya kanallarının cəbhəboyu zonada yerləşən hərbi hissələrdə çəkilişlər aparılması üçün iki icazə məktubu verilib. Müdafiə Nazirliyi tərəfindən təşkil edilən tədbirlərin işıqlandırılması üçün televiziya və informasiya agentlikləri 6 tədbirə dəvət olunublar.

# Ordumuzun gələcək, peşəkar zabitləri

Azərbaycanla Rusiya Müdafiə Nazirliyi arasında bağlanmış müqaviləyə əsasən, Moskvada yerləşən Hərbi Universitetdə azərbaycanlı kursantlar təhsil alırlar. 1919-cu ildə Ukraynanın Lvov şəhərində yaradılmış Hərbi məktəb SSRİ dağıldıqdan sonra Hərbi Universitet kimi Moskva şəhərində fəaliyyətini davam etdirir. Universitetin xeyli sayda azərbaycanlı məzunları olub. Hazırda burada hərbi jurnalist, hərbi psixoloq, tərcüməçi, hüquq ixtisasları üzrə azərbaycanlı kursantlar təhsil alırlar. Onların tədris prosesi mühazirə, seminar, praktiki və hərbi formada aparılır. Tədris şöbəsi tərəfindən muzeylərə tele-radiokompaniyalara və nəşriyyatlara ekskursiyalar təşkil olunur. Kursantlarımız fiziki hazırlığa da diqqət verir, idmandan geri qalmırlar. Mütəmadi olaraq idman normativlərini yerinə yetirirlər. Hətta daha yüksək nəticələr qazanmaq üçün sərbəst vaxtlarında yaxınlıqda yerləşən parkda qaçış ilə məşğul olurlar. Müxtəlif maraqlı və bilikli insanlarla tez-tez görüşlər təşkil olunur. İnformasiya təminatı şöbəsinin müəllimləri çoxillik təcrübələrini bizlərlə bölüşürlər. Görkəmli alim, professor Yakov Alekseyeviç Lomkonu Hərbi Universitetin və Sovet beynəlxalq jurnalistikasının əfsanəsi kimi tanıyırıq. Hərbi Universitetdə fəaliyyət göstərən xüsusi fakültədə ölkəmizlə yanaşı, Tacikistan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Kuba, Anqola, Konqo, Laos, Kamboca və digər ölkələrin kursantları da təhsil alırlar. Azərbaycanlı kusrsantların uğurları haqqında deyə bilərəm ki, 2017-2018-ci tədris ilinin əvvəlində iki kursant, mən və İbrahim Məmmədbəyov, dərslərdə fəal iştirakımıza görə təşəkkürnaməyə layiq görüldük. Dərslərdə fəallığına və intizamına görə Xaliq Hüseynov və Xəyal Vəliyevə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Füzuli Salahovun əmri ilə kiçik çavuş hərbi rütbəsi verildi.

**Kursant,**
**Əli ABIYEV**

*Əsgərin tribunası*

# Hərbi xidmət həyat və qəhrəmanlıq məktəbidir

*Bu yaxınlarda "Azərbaycan Ordusu" qəzetindən gəlmişdilər, bir çox əsgər yoldaşım kimi məni də dinlədilər. Düşüncələrimi qələmə alacaqlarını biləndə nə qədər sevindim. Doğma qəzetimizi həvəslə oxuyuram, səhifələrində dərc edilən əsgər məktubları da ürəyimcədir. Əgər mənim də düşüncələrimi dərc etsəniz, çox məmnun olardım.*

Bir vaxtlar vardı ki, mən də televizor önündə əyləşib hərbi verilişlərə, əsgərlərdən bəhs edən süjetlərə maraqla baxırdım və düşünürdüm ki, bir gün Vətənimin əsgər oğulları sırasında olacam. Artıq on aydır ki, arzuma çatmışam.



Orta məktəbi Bakının Xəzər rayonunda oxumuşam, əlaçı olmasam da hərbi fənnə marağım böyük idi. Həmişə bu dərsin başlanmasını həsrətlə gözləyirdim, çünki müəllimimiz bizə hərbə aid bilgilər aşılayırdı, hərbi xidmətin gənclik üçün həm həyat, həm də qəhrəmanlıq məktəbi olduğunu öyrədirdi. Bizə qüdrətli ordumuzdan, müasir silah və hərbi texnikalardan danışırdı. Böyüdükcə bir həqiqəti dərk edirdik ki, Vətəni qorumaq biz gənclərin ən müqəddəs və şərəfli vəzifəsidir.

Fevralın 7-si əfsanəvi döyüşçü, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anım günüdür, hər il xalqımız onu böyük ehtiramla yad edir. Mübariz də sıradan bir əsgər olub, amma tükənməz Vətən sevgisi onu ən uca zirvəyə - şəhidliyə qaldırdı. Onun döyüş yolu haqqında mən də çox şey bilirəm. Deyirlər ki, Mübariz əməliyyata girəndə geri qayıtmayacağına əmin idi. Bu həqiqəti qəhrəman əvvəlcədən valideynlərinə yazdığı məktubda da etiraf edib. Erməni faşistlərinin əli ilə törədilən Xocalı soyqırımı, torpaqlarımızda müharibə başlananda üzü bəri nə qədər günahsız adamın öldürülməsi onu daim narahat edib və güclü intiqam hissi ilə savaşa atılıb. Mübarizin qısa döyüş yolu dastanlaşdı və onu milyonların sevimlisinə çevirdi. 2016-cı ilin aprel döyüşündə qazanılan tarixi qələbəmiz, Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Azərbaycan Ordusunun gücünü, əsgər və zabitlərimizin vətənpərvərliyini təsdiqlədi. Həm də sübut etdi ki, doğma ordumuzun sıralarında Mübariz İbrahimov kimi qəhrəmanlar yüzlərlə yox, minlərlədir.

Hərbi xidmətimin on ayı arxada qalır, bu müddətdə bacarıqlı, vətənpərvər əsgər olmağı qarşıma məqsəd qoydum və istəyimə çatmışam. Komandirlərimin hər döyüş tapşırığını böyük məsuliyyətlə yerinə yetirirəm. Düşünürəm ki, hər tapşırıq Vətənimə sədaqətimi sınağa çəkir. Xalqını, milləti düşünən əsgər heç vaxt düşmən önündə acizləşə bilməz. Əsgəri qəhrəmanlıq səviyyəsinə yüksəldən məhz Vətənə olan hüdudsuz sevgisidir.

Son təlimdə fərqlənənlər arasında adım çəkiləndə sevincim yerə-göyə sığmadı, komandirimin hörmətini qazana bildiyim üçün fərəhlənirdim. Əldə etdiyim uğurlarda təcrübəli zabitlərimizə minnətdaram, onların köməyi sayəsində hərbin sirlərinə yiyələndik, Vətəni qorumağı, Vətən naminə mübariz olmağı öyrəndik. Artıq indi 10 ay əvvəlin əsgəri deyiləm, düşmənə öz sözümü deməyə qadir olan bir döyüşçüyəm.

Yəqin ki, məktubumu oxuyanlar arasında çağırışçı gənclər də olacaq. Onlara üz tutub demək istərdim ki, hər şeydən öncə hərbi xidmətdə olmağa tələsin, çünki ordu mühiti həyat və qəhrəmanlıq məktəbidir. Bu yolda hamınıza uğurlar arzulayıram.

**Əsgər**
**Ağaməli GÜLƏLİZADƏ,**
**"N" hərbi hissəsi,**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi "Gizir hazırlığı kursu"na qəbul elan edir

Müdafiə Nazirliyinin hərbi hissələrinə gizirlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan müddətli həqiqi hərbi xidmətini başa vurmuş, tam orta təhsilli, 28 yaşınadək vətəndaşlar fevralın 5-dən 24-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (SQ TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

Müraciət etmiş vətəndaşlar hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir və hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər "Gizir hazırlığı kursu"na qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran vətəndaşlarla 5 (beş) il müddətinə bağlaşma bağlanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər SQ-in TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surətləri - 2 nüsxədə;
- nigah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- psixoloji, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə.

**Ünvan:**
Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi).

**Müraciət etmə vaxtı:**
2018-ci il fevralın 5-dən 24-dək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

**Telefon:**
(012) 538-85-62

**Qeyd:**
Məhkumluğu olan hərbi vəzifəlilərin "Gizir hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

# İdman

## Kişi boksçular arasında Azərbaycan çempionatının qalibləri müəyyənləşib



Yanvarın 31-də kişi boksçular arasında Azərbaycan çempionatı başa çatıb. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 39 komandanın 203 boksçusu qüvvəsini sınayıb.

Altı gün davam edən turnirdə 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

Boks Mərkəzində təşkil olunan çempionatda final döyüşlərində qalib gələn Araz İmaməliyev (49 kq), Məsud Yusifzadə (52 kq), Tayfur Əliyev (56 kq), Cavid Çələbiyev (60 kq), Elvin İsayev (64 kq), Elnur Süleymanov (69 kq), Hidayət Musayev (75 kq), Eldar Quliyev (81 kq), Rahil Məmmədli (91 kq) və Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) çempion tituluna sahib olublar.

Gənclər millisindən böyüklərə yeni keçən M.Abdullayev, həmçinin yarışın ən yaxşı boksçusu seçilib. Turnirin komanda hesabında "Qəbələ" birinci yeri tutub. İkinci pilləyə "Gilan" yiyələndiyi halda, üçlüyü "Rabitə" qapayıb.

## Azərbaycan cüdoçuları Bolqarıstanda Avropa kuboku yarışlarında iştirak edəcəklər



Fevralın 3-4-də Bolqarıstanın paytaxtı Sofiyada kişi cüdoçular arasında açıq Avropa kuboku yarışları keçiriləcək.

İki gün davam edəcək yarışa Azərbaycan millisi də qatılacaq. Yığmamızın məşqçilər korpusu Sofiyada 19 cüdoçunu sınamağa qərar verib. Heyətdə Mehman Sadıqov, Tofiq Məmmədov, Sadiq Məhərrəmov (hər üçü 60 kq), Tərlan Kərimov, İlkin Babazadə, İsmayıl İbrahimov, İlqar Müşkiyev (hamısı 66 kq), Telman Vəliyev, Paşa Əliyev (hər ikisi 73 kq), Fəqan Quluzadə, Afiq Səfərli, Coşqun Abdullayev (hər üçü 81 kq), Abdulhaqq Rəsullu, Qurban Qurbanov, Rüfət İsmayılov (hər üçü 90 kq), Adil Kərimli, Sənan Əhmədov, Cəfər Əkbərli (hər üçü 100 kq) və Uşanqi Kokauri (100 kq-dan yuxarı) yer alıblar.

## On cüdoçumuz beynəlxalq reytinq cədvəlində ilk iyirmilikdə yer alıb



Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. Siyahını millimizin aparıcı idmançıları üçün uğurlu hesab etmək olar.

Yığmamızın əsas cüdoçularının hamısı mövqeyini qoruyub. Onlardan 10-u ilk 20-likdə yer alıb. Belə ki, Orxan Səfərov (60 kq) yenə 7-ci, Nicat Şıxəlizadə (66 kq) 14-cü, Rüstəm Orucov 3-cü, Hidayət Heydərov (hər ikisi 73 kq) 4-cü, Məmmədəli Mehdiyev (90 kq) 11-ci, Tural Səfquliyev (90 kq) 17-ci, Elxan Məmmədov 4-cü, Elmar Qasımov (hər ikisi 100 kq) 6-cı, Uşanqi Kokauri (100 kq-dan yuxarı) 18-ci, qadınlar arasında isə İrina Kindzerska (78 kq-dan yuxarı) 7-ci pillədə qərarlaşıb.

## Yeniyetmə həndbolçular arasında Bakı birinciliyinə yekun vurulub



Azərbaycan Həndbol Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə yeniyetmələr arasında həndbol üzrə açıq Bakı birinciliyi keçirilib.

2002-2003-cü il təvəllüdlü oğlanlar arasında "ABU Arena"da təşkil edilən yarışda səkkiz komanda iştirak edib.

Yarışın finalında "Mingəçevir" təmsilçisinə 25:24 hesabı ilə qalib gələn "Nəsimi-1" komandası birinci yerin sahibi olub. Turnirdə üçüncü pilləni "Qazax" kollektivi tutub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 37
Nüsxə 3550